**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№346/6** **28 iyul 2022-ci il**

# "Rəqəmsal iqtisadiyyatda şəffaflıq" kitabının hazırlanması və nəşri barədə

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasında (2021-2030-cu illər)" həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin təqvim planının 11-ci "Auditdə şəffaflığın artırılması, haqsız rəqabət və dempinqə qarşı mübarizə" bəndinin 26-cı "Kölgə iqtisadiyyatının azaldılmasında auditin rolunun gücləndirilməsi" altbəndinin və Palatanın 2022-ci il üzrə iş planının 8.2.1-ci "Rəqəmsal iqtisadiyyatda şəffaflıq" kitabının hazırlanması və nəşr etdirilməsi" bəndinin icrası məqsədilə Auditorlar Palatasının sədri, professor V.Novruzov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov tərəfindən hazırlanmış "Rəqəmsal iqtisadiyyatda şəffaflıq" kitabının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Rəqəmsal iqtisadiyyatda şəffaflıq" kitabının layihəsi bəyənilsin (əlavə olunur).
2. Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, "Rəqəmsal iqtisadiyyatda şəffaflıq" kitabının redaktəsi başa çatdıqdan sonra bir ay müddətində kitabın 500 (beş yüz) nüsxədə nəşr etdirilməsini və müvafiq siyahı üzrə Palatanın üzvləri olan auditor təşkilatlarına və sərbəst auditorlara, habelə aidiyyəti dövlət qurumlarına paylanılması təmin edilsin.
3. "Rəqəmsal iqtisadiyyatda şəffaflıq" kitabının 100 (yüz) nüsxəsinin satışa çıxarılması məqsədəmüvafiq hesab edilsin.
4. Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarın 3-cü bəndindən irəli gələn məsələləri həll etsin.

**Şuranın sədri** **Vahid Novruzov**